UOT 94 "04/15"
https://doi.org/10.59849/2710-0820.2024.1.144

**Yeganə Çağlayan**
*T.ü.f.d., dos.*
*Muş Alparslan Universiteti, Türkiyə Cümhuriyyəti*
*y.caglayan@alparslan.edu.tr*

# XIII ƏSRİN BİRİNCİ YARISINDA BİZANSIN AVROPA SİYASƏTİNƏ DAİR

***Açar sözlər:*** *Bizans, Konstantinopol, xaçlılar, Venesiya, Komnenoslar, Angeloslar, Paleoloqoslar.*

## Giriş

Orta əsrlərin ən uzun ömürlü imperiyalarından biri olan Bizans imperiyası həm sosial və iqtisadi inkişaf xüsusiyyətləri, həm də xarici siyasət prinsipləri ilə digər dövlətlərdən xeyli seçilmişdir. Əslində Bizansın xarici siyasəti bəzi məqamları ilə onun daxili inkişafını şərtləndirmiş, eyni zamanda imperiya ideologiyası dövlətin xarici siyasətinə böyük mənada təsir göstərmişdir. Özünü Roma imperiyasının "qanuni" varisi olaraq görən Bizans istər müsəlman dövlətləri ilə, istər katolik dövlətlərilə münasibətlərində hər zaman özünün üstünlüyü prinsipindən çıxış etmişdir. Bu üstünlük prinsipi, S.P.Karpovun da qeyd etdiyi kimi, "*romalıların Tanrı tərəfindən qorunan imperiyasının universallığını və müstəsnalığını bəyan edən köhnəlmiş oykumençi doktrina*" ilə bağlı idi [12, s.509].

395-ci ildə Roma imperiyasının rəsmi olaraq ikiyə ayrılması ilə ortaya çıxan Şərqi Roma imperiyası (Bizans) ilk mərhələdə "barbar" xalqların yürüşləri, ardınca Sasanilər və Xilafətin rəqabəti ilə qarşılaşsa da, xaçlı səfərlərinə qədər müəyyən qədər öz xarici siyasi gücünü saxlaya bilmişdi. Lakin normanların və səlcuqluların yürüşləri qarşısından müdafiəsiz olduğunu görüb çıxış yolunu katolik dövlətləri yardıma çağırmaqda görən Komnenoslar sülaləsi, daha doğrusu sülalənin nümayəndəsi I Aleksios (1081-1118) bundan sonrakı tarixi mərhələdə Bizans üçün necə böyük bir bəlaya yol açdığını o zaman anlamamışdı.

Komnenosların italyan dövlətlərinə, ələlxüsus Venesiya Respublikasına verdiyi ticari imtiyazlar onu böyük bir "burulğan"ın içinə salmış, vəziyyətdən qurtulmaq üçün italyan dövlətləri arasında manevr etməyə çalışan imperiyanın vəziyyəti düzəlmək əvəzinə daha da ağırlaşmışdır. XI əsrin sonlarına gəldiyində Bizans hər tərəfdən xarici düşmənlərlə sıxışdırılmış bir vəziyyətə düşmüşdü. Səlcuq Türklərinin sürətlə qərbə doğru irəliləməsi, normanların işğalçı yürüşləri, venesiyalıların ve genuyalıların Konstantinopoldakı eksterritorial hüquqlardan qaynaqlı müstəqil davranışları Bizans tarixinin ən ağır mərhələsinin başladığının xəbərçisi idi.

XIII əsrin birinci yarısını məqalənin xrolonoji çərçivəsi olaraq seçməyimiz təsadüfi deyildir: bu dövr Bizans imperiyasının yerində Latın imperiyasının qurulması və yerli dövlətlərin Konstantinopolu geri almaq üçün xaçlılarla və bir-biriləri ilə mübarizə apardıqları bir dövrdür. Oykumençi doktrinanın mövcud reallıqla heç bir şəkildə uyğun olmadığı bu dövrdə Paleoloqoslar sülaləsi gərgin bir diplomatik kombinasiyalar qurmaq, Anadolu Səlcuqlu dövləti, xaçlılar, Venesiya və Genuya respublikaları, Papa dövləti, Trapezund və Epir imperiyaları ilə manevr siaysəti yürütmək məcburiyyətində qalmışdır.

1261-ci ildə bərpa edilən Bizans imperiyası əvvəlki Şərqi Roma imperiyasının sadəcə solğun bir "kölgəsi" olmuşdur. İmperiyanın bərpası ərəfəsində Nikeya imperiyasının xarici siyasətinin təhlili göstərir ki, sosial, siyasi, etnik proseslərlə yanaşı, bölgədəki hərbi-siyasi vəziyyət də Bizansın sonrakı müqəddaratında böyük rol oynamışdır.

## 1. Dördüncü xaçlı səfəri (1202-1204) ərəfəsində Bizansın xarici siyasi vəziyyəti

Xaçlı hərəkatının gerçək mahiyyəti daha birinci səfərdə (1096-1099) özünü göstərdi: 1098-ci ildə işğal edilən Antakya (Antioxiya)

və Urfa (Edessa) şəhərləri xaçlı liderlərinin Bizans imperatoru I Aleksios Komnenos ilə bağladıqları Konstantinopol anlaşmasının şərtlərinin əksinə olaraq, Bizansın hakimiyyətinə verilmədi. Bunun ardınca Antakya Prinsipatlığı (əvvəlki dövrün ədəbiyyatında knyazlıq) və Urfa Kontluğu (əvvəlki dövrün ədəbiyyatında qraflıq), 15 iyul 1099-cu ildə Qüdsün ələ keçirilməsi ilə isə Qüds (Yerusəlim) krallığı quruldu və bununla da Bizansın Səlcuq Türklərindən qurtulmaq üçün dəvət etdiyi xaçlıların müstəmləkəçi fəaliyyətləri özü-özlüyündə aşkar oldu. 1109-cu ildə isə daha bir xaçlı dövləti – Trablus (Tripoli) Kontluğu ortaya çıxdı.

Sonrakı yüzillikdə həyata keçirilən ikinci (1147-1148) və üçüncü (1189-1192) xaçlı səfərləri də Yaxın Şərqə gələn işğalçıların əslində xristian təəssübkeşindən daha çox amansız işğalçı olduğunu isbatladı. Əvvəlki tədqiqatlarımızda da göstərdiyimiz kimi, "*xaç yürüşləri Avropanın X-XI əsrlərin hüdudunda yaşadığı dərin sosial-iqtisadi, siyasi proseslərlərin şərtləri altında doğmuşdu və hətta, qanunauyğun idi. Avropa bundan qabaq da yaşadığı təzadlı proseslərin təsiri altında Asiya ilə zorla ünsiyyət yaratmışdı: e.ə. IV əsrdə Yunan dünyası ağır iqtisadi, siyasi və mədəni böhran keçirəndə çıxış yolunu Şərqə yürüşdə tapmışdı və bu təşəbbüs ellinist sisteminin təşəkkülü ilə başa çatmışdı. Təkrar hadisələri Avropa xaç yürüşlərindən bir neçə əsr sonra yaşayacaq: kapitalizmin rüşeymlərin kök atdıqca, cəmiyyət yeni bazarlar və xammal mənbələri axtarışında yenə Şərqlə zor gücünə ünsiyyətə girəcək və nəticədə müstəmləkə sistemi yaranacaq. Xaç yürüşləri isə bu sonuncunun prelyudiyası idi*" [1, s.183].

Bir tərəfdən xaçlıların Şərqi Aralıq dənizi torpaqlarında dövlətlər quraraq möhkəmlənməsi, digər tərəfdən isə Konstantinopolda italyan dövlətlərinin (əlalxüsus Venesiya Respublikasının) iqtisadi olaraq güclənməsi imperator I Aleksios və varisləri üçün böyük problemlər yaratmışdı. Bizans artıq bölgədə baş verən hadisələrə nəzarət edə bilmirdi və xaçlıların onun üzərində basqısı gedərək artırdı. Bizans üz-üzə qaldığı bu böyük problemi həll edə biləcək gücdə deyildi: istər hərbi və siyasi baxımdan, istərsə də iqtisadi və sosial baxımdan imperiya tənəzzül yaşayırdı. Əvvəlki illərdə Bizansın venesiyalılara verdiyi ticari güzəştlər (992, 1082, 1126 və 1148-ci il xrisovulları*) imperiyanın bu tənəzzülündə kifayət qədər böyük rol oynamışdı. P.Charanisin qeyd etdiyi kimi, "*italyan tacirləri Konstantinopol iqtisadiyyatını günlük ehtiyacların qiymətlərini təsbit etməyə qədər tamamilə nəzarətləri altına almışdılar*" [2, s.533].

İmperator I Manuil Komnenos (1142-1180) vəziyyətdən çıxış yolunu italyan dövlətləri arasında rəqabətdən istifadə edərək manevr siyasəti yürütməkdə gördü. Məhz bu taktikaya dayanaraq o, Piza və Genuya ilə yaxınlaşaraq Venesiyanın təsirindən çıxmağa çalışdı, 1171-ci ildə venesiyalılara qarşı həyata keçirilən təqib siyasəti isə Venesiya ilə olan gərgin münasibətləri daha da ağırlaşdı. Hətta Rusiya tarixçisi K.M.Cusoyev dördüncü xaçlı səfərinin düzənlənməsində 1171-ci il hadisələrinin də böyük bir amil olduğunu düşünür [11, c.369-378]. Əlbəttə, K.M.Cusoyevin fikrilə müəyyən mənada razılaşmaq olar: Venesiya 1171-ci ildən sonra Konstantinopolda itirdiyi mövqeyini təkrardan geri almağa çalışırdı və dördüncü xaçlı səfərinin istiqamətinin Misirdən Bizansa yerdəyişməsində Venesiya diplomatiyasının böyük rolu olmuşdur. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, xaçlı hərəkatı bir müstəmləkəçi hərəkat idi, hədəfi də yeni torpaqlar ələ keçirmək olub, Bizans imperiyası bu yolda onun üçün ən böyük maneələrdən biri idi. Bununla əlaqədar imperator I Aleksiosun qızı Anna Komnena "Aleksiada" adlı əsərində yazır ki, xaçlılar "*görünüşdə Qüdsə səfər etmişdilər, əslində isə onlar [Bizans] imperatorunu devirmək və paytaxtı (Konstantinopolu – Y.Ç.) ələ keçirmək istəyirdilər*" [14, s.283].

Bizansın şərq cəbhəsindəki uğursuzluqları da (o cümlədən 1176-cı il Miryakefalon məğlubiyyəti) Avropa siyasətinə təsir edən amillər sırasında yer alır. Bir tərəfdən, Bizansın səlcuqlularla müharibədəki uğursuzluğu, digər tərəfdən də üçüncü xaçlı səfəri öncəsi (1189-1192) müsəlmanların xaçlılar üzərində qazandıqları əhəmiyyətli zəfərlər, xaçlı dövlətlər arasındakı mürəkkəb münasibətlər, eləcə də Bizans ilə xaçlılar arasındakı düşmənçilik yenidən bölgədəki

* "Xrisovul" yunan dilindən tərcümədə "qızıl bulla" (Χρυσόβουλλον) anlamına gəlir, IX əsrin sonlarından etibarən Bizans imperatorlarının fərmanlarına deyilirdi [10, s.489-490].

vəziyyəti gərginləşdirdi. Katolik dünyası Bizansın strateji əhəmiyyətli şəhərlərindən istifadə edərək müsəlman qüvvələrinə zərbə endirməyə çalışırdı, bu səbəbdən də Manuil Komnenosun hakimiyyətinin sonuna doğru kilsələrin uniyası məsələsi yenidən gündəmə gəlmiş oldu. Lakin 1180-ci ildə çağrılan Konstantinopol kilsə yığıncağı kilsələrin uniyasına müyəssər ola bilmədi [9, s.271-272].

Böyük Komnenoslar sülaləsinin (1081-1185) sonrakı nümayəndələri – imperatorlar II Aleksios (1180-1183) və I Andronikosun (1183-1185) dövründə Bizansın Avropa siyasətində müsbət mənada kardinal bir dəyişiklik müşahidə edilməyib, əksinə imperiyanın mərkəzi hakimiyyəti gedərək zəiflədi. 1182-cü ildə Venesiya əvvəlki ticari imtiyazlarını bərpa etməyə müyəssər oldu. İmperiyanın düşmüş olduğu ağır vəziyyət torpaq itkiləri ilə müşahidə olunurdu: 1183-cü ildə macarlar Dalmasiyanı ələ keçirdilər, 1185-ci ildə isə Fessalonika normanlar tərəfindən ələ keçirilərək talan edildi [12, s.171]. Bu uğursuzluqlar Böyük Komnenoslar sülaləsinin sonunu gətirərək Bizansda sülalə dəyişikliyi ilə nəticələndi.

Komnenosların yerinə keçən Angelos sülaləsinin hakimiyyət dönəmi (1185-1204), Türkiyə tarixçisi Ö.Özdemirin də qeyd etdiyi kimi, "*Bizans imperiyasının cahanşümül bir dövlət olma iddiasından vaz keçdiyi dövrü təmsil edir*" [4, s.115]. Bu sülalənin hakimiyyəti dövründə imperiyanın həm daxili, həm də xarici siyasətindəki böhran yüksək həddinə çatmış oldu. 1186-cı ildə İkinci Bolqar çarlığının qurulması, 1190-cı ildə isə serblərin müstəqil olmaları Bizans imperiyasının "*gözlər önündə çökməsi*" idi [12, s.171]. 1192-ci ildə Kipr də, adada xaçlı dövlətinin qurulması ilə (1192-1489) Bizans üçün birdəfəlik itirilmiş oldu [12, s.282].

Bu dövrdə Bizansın xarici siyasətində yenidən Venesiya ilə yaxınlaşma müşahidə olunur: hələ imperator Andronikos Komnenos (1183-1185) tərəfindən 1185-ci ildə venesiyalılara təkrardan verilən güzəştlər Angelos sülaləsi dövründə də təkrarlanmış oldu: 1187-ci ildə imperator İsaakios (1185-1195) sələflərinin verdikləri xrisovulları tanıdı və Venesiya ilə hərbi saziş də imzaladı, 1189-cu ildə imperiya əvvəlki illərdə vurulan maddi ziyanın qarşılığında respublikaya böyük bir təzminat da ödədi [18, s.309, 312]. Müqavilə 1199-cu ildə imperator III Aleksiosun dövründə (1195-1203) yeniləndi [18, s.316]. Venesiyaya verilən güzəştlər imperiyanı təkcə siyasi deyil, iqtisadi cəhətdən də çox zəiflətmiş oldu: "*Dövlətin gücünü və mövcudluğunu davam etdirməsi – təməli vergi olan maddi qaynaqlara dayanır. Bizansda bu qaynaq azad kəndlilərin yox olması, aristokratiyanın sərvəti, imtiyazları və gücündəki yüksəlmə ilə ciddi bir şəkildə geriləyərək, italyan respublikalarına verilən ticari imtiyazlarla da demək olar ki, ortadan qalxmışdı*" [2, s.535].

Beləliklə, dördüncü xaçlı səfəri ərəfəsində Bizans tamamilə latınların təsiri altına düşərək yaşadığı daxili və xarici siyasi təlatümlər səbəbilə yeni işğallar qarşısında müdafiəsiz vəziyyətə düşmüş oldu.

**2. Dördüncü xaçlı səfəri (1202-1204) və Bizans imperiyası**

Tarixi ədəbiyyatda xaçlı hərəkatına, o cümlədən dördüncü xaçlı səfərinə kifayət qədər əsər həsr edilmişdir və bu məqalədə məqsədimiz bu hərəkatın tarixini izləmək deyildir. Lakin araşdırmamızın mövzu obyekti müvafiq dövrdə Bizansın xarici siyasət məsələləri olduğu üçün, bu səfərin bəzi məqamlarının üzərində daha ətraflı dayanmağı məqsədəuyğun hesab edirik.

Qüdsün fatihi Səlahəddin Əyyubinin (1171-1193) Misir və Suriyanı vahid hakimiyyət altında birləşdirməsinin (1176) ardından xaçlılar üçün böyük taktik problemlər ortaya çıxdı: Qüdsün və Şərqi Aralıq dənizi torpaqların xaçlı hakimiyyətində qalıb qalmaması məsələsi artıq Qahirədən asılı idi. Bu səbəbdəndir ki, Roma papası III İnnokentius (1198-1216) taxta gəlir-gəlməz, Misir səfərinə çağırış etdi (məşhur 1198-ci il "*Post Miserable*" ensiklikası), bütün katolik ölkələrə missionerlər göndərildi, eyni zamanda səfərin çox bahalı olduğu nəzərə alınaraq, böyük məbləğ toplanmağa başlandı [8, s.107-111]. Əlbəttə, papa III İnnokentiusun həyata keçiriləcək yeni səfərdə Bizansla bağlı hədəfi də var idi: ortodosk kilsəni Romaya tabe etdirmək və Suriyada katoliklərin mövqeyini gücləndirmək [18, s.357]. Məhz bu hazırlıqlar gedişində xaçlılarla Bizans imperiyası arasındakı ixtilaflar, ələlxüsus ticari rəqabət pik həddə çatdı.

Dördüncü xaçlı səfəri ərəfəsində katolik Avropanın hərbi və iqtisadi imkanları məhdud

olub, Misirə səfər təşkil etmək üçün yetərli deyildi. İstər donanma baxımından, istərsə də maliyyə baxımından xaçlılara yardım edə biləcək potensial güc – Venesiya Respublikası idi və bu sonuncusu yaranmış vəziyyəti çox yüksək dəyərləndirə bildi. Tezliklə Venesiya dördüncü xaçlı səfərinin təşəbbüsünü öz əlinə aldı, artıq 1201-ci ilin fevralında Fransanın və Flandriyanın xaçlı liderləri buraya səfər etdi [13, s.8].* Xaçlıların başlıca istəyi dörd min cəngavəri və yüz min piyadanı daşımaq üçün gərəkli olan gəmilərin təmin edilməsi idi. 1201-ci ilin aprelində bağlanan müqaviləyə görə, Venesiya 87 min marka qarşılığında (25 mini beh olaraq) xaçlılara 50 gəmi verilməsinə razılıq verdi [13, s.9].

Xaçlıların Venesiya ilə qarşılıqlı münasibətlərinin ilk baxışda Bizansla hər hansı bir əlaqəsinin olmadığı düşünülə bilər. Lakin sonrakı hadisələr Venesiyanın dördüncü xaçlı səfərində Bizansa qarşı başlatmış olduğu hərbi-siyasi oyunu açıq-aşkar göstərir. Belə ki, xaçlıların tələb olunan məbləği toplamaqda çətinlik çəkdiyini görən Venesiya bu səfəri Misirdən Bizansa qarşı yönəltmək qərarı aldı: bunun üçün Bizans imperiyasının daxilindəki vəziyyət də əlverişli idi. Belə ki, 1195-ci ildə saray çevrilişi nəticəsində imperator II İsaakiosun yerinə qardaşı III Aleksios gəlincə, paytaxtda vəziyyət qarışmış oldu [9, s.412]. Devrilmiş imperatorun oğlu şahzadə Aleksios 1202-ci ilin yazında həbsxanadan qaşmağa müyəssər oldu və tezliklə Venesiyaya gələrək atasının imperatorluq hakimiyyətinin bərpası üçün yardım istədi [18, s.365]. Beləliklə, Venesiya üçün xaçlı səfərini istədiyi istiqamətə yönləndirmək "bəhanəsi" tapıldı.

Qeyd edək ki, bu zaman Venesiyanın doju yaşlı olmasına baxmayaraq, əlində böyük hakimiyyəti cəmləşdirə bilmiş Enriko Dandolo idi. Yuxarıda bəhs etdiyimiz 1171-ci il hadisələri zamanı iki dəfə diplomatik nümayəndə olaraq Bizansa göndərilən Dandolo [5, s.50-52, 56] bu istiqamətdə böyük təcrübə toplamışdı. Üstəlik, bəzi tarixçilər dördüncü xaçlı səfərinin Bizansa qarşı yönləndirilməsində onun şəxsi rolunun, daha doğrusu Konstantinopolda ona qarşı sərt rəftarın qarşılığı olaraq intiqam hissinin də yeri olduğunu düşünürlər [6, s.168-172, 175; 3, s.63-64]. İstənilən halda, bu insanın xaçlılar qarşısındakı uğurlu çıxışının və qurduğu diplomatik kombinasiyaların dördüncü xaçlı səfərinin istiqamətinin dəyişməsində böyük rol oynadığını etiraf etmək lazımdır.

Xaçlılar Venesiyaya ödənəcək məbləği toplaya bilmədikləri üçün Enriko Dandolo onlara Dalmasiyadakı / indiki Xorvatiyakı Zara (xorvat dilində Zadar) şəhərini ələ keçirməyi təklif etdi; Rober de Klari yazır: "*Doj yanımıza gələrək bizə dedi ki, ... yaxınlıqda bir Zara şəhəri var. Şəhərin əhalisi bizə çox pislik edib və biz – mən və adamlarım bunun intiqamını almaq istəyirik*" [13, s.13]. Əslində Enriko Dandolo Zaranı ələ keçirəcək xaçlıların daha sonra Konstantinopola yönələcəyindən əmin idi. Sonrakı hadisələr onun əsas hədəfinin nə olduğunu açıq-aşkar göstərdi: 1202-ci il noyabrın 24-də Zara xaçlılar tərəfindən ələ keçirildi, lakin ərzaq qıtlığı səbəbilə ağır vəziyyətə düşən xaçlı ordusu Misirə və ya Suriyaya gedəcək gücdə deyildi [13, s.15]. Konstantinopol səfəri üçün isə bəhanə var idi: devrilmiş İsaakiosun taxta bərpasını təmin etmək. Bəzi xaçlı liderləri Konstantinopol səfərinə etiraz edib Suriyaya getsələr də [18, s.373], böyük əksəriyyət dojun təklifini qəbul etdi.

1203-cü ilin yayında Konstantinopol xaçlılar tərəfindən mühasirəyə alındı, iyulun 11-də və 17-də həyata keçirilən hücumlar gedişində paytaxtın əhalisi böyük bir itki verdi. İmperator III Aleksios şəhərdən qaçmağa məcbur oldu, İsaakiosun hakimiyyəti bərpa edilsə də, xaçlıların tələbi ilə 1203-cü ilin avqust ayında İsaakiosun oğlu IV Aleksios həmidarəçi elan edildi [18, s.375]. Baş verənlər xaçlıların Bizansda siyasi vəziyyəti tam nəzarətlərinə aldıqlarının ilk göstəriciləri idi.

Gənc imperator IV Aleksios xaçlılara vəd etdiyi məbləği ödəyəcək gücdə deyildi, üstəlik paytaxtda xaçlıların talanları və özbaşınalıqları əhalinin arasında böyük etirazlar doğurmuşdu. Xaçlılarla bizanslılar arasında qarşıdurma qaçılmaz idi. 1204-cü ilin yanvarında Konstantinopolda baş qaldıran üsyan nəticəsində imperator II İsaakios və oğlu IV Aleksios devrildi, birincisi tezliklə əcəli öldü, ikincisi isə edam edildi [7, s.221; 18, s.378]. 1204-cü il aprelin 13-də Konstantinopol tamamilə xaçlıların əlinə keçdi.

* Əslində xaçlılar yardım üçün ilk olaraq Genuyaya və Pizaya müraciət etmişdirlər, lakin rədd cavabı alınca Venesiyaya səfər etmişdilər [13, s.8].

Bunun ardınca Latın imperiyası (*İmperium Latinum* və ya *İmperium Romaniae*) təşkil edildi və bu xaçlı dövləti 1261-ci ilə qədər mövcudluğunu sürdürdü.

Rusiya tarixçisi N.P.Sokolov hesab edir ki, Venesiyanın yardımı olmasaydı, "*Bizansın tarixində latın fasiləsi də olmazdı*" [18, s.358]. Bu fikirlə birmənalı razılaşmaq olmur, çünki XII əsrin sonları – XIII əsrin əvvəllərində Bizansın yaşadığı faciəvi hadisələri, o cümlədən dördüncü xaçlı səfəri sonrası Konstantinopolun işğalını və Latın imperiyasının qurulmasını sadəcə xarici siyasi amillə bağlamaq tarixi gerçəkləri əks etdirmir. Roma imperiyasının varisi olaraq 395-ci ildən bəri mövcudluğunu sürdürən Bizans imperiyasının keçdiyi sosial və iqtisadi, siyasi və dini inkişaf yolu, əslində 1204-cü ildə məntiqli nəticəsini tapmış oldu: Avropa ölkələrinin əksəriyyətində feodalizmin başlamış olan tənəzzülü Bizansda müşahidə edilmirdi, hətta bəzi məqamları ilə Bizansda quldarlıq quruluşunun qalıqları belə saxlanmışdı. Bu dövlət daxili siyasətindəki uğursuzluqları xarici siyasətdə bəzi addımlarla düzəltməyə çalışsa da, istər norman yürüşlərinə qarşı müdafiəsiz vəziyyəti, istər Səlcuqlu dövləti ilə olan münasibətləri, istərsə də xaçlılardan yardım siyasəti dövlətin bu istiqamətdə də gücünün tükəndiyinin göstəriciləri idi.

**3. Bizans imperiyasının bərpası ərəfəsində bölgədə hərbi-siyasi vəziyyət. Bizans imperiyasının bərpası (1261)**

Latın imperiyası təşkil edildikdən sonra Anadolu və Balkanların siyasi coğrafiyasına bəzi dəyişikliklər baş verdi. İlk olaraq qeyd etmək istəyirik ki, "Frankokratiya" (*Francocratia / Frankların hakimiyyəti*) adlandırılan bu dövrdə Latın imperiyasının imperatoru, Flandriya kontu I Balduin imperiyanın sadəcə dörddə birinə sahib ola bilmişdi, digər dörddə üçü isə venesiyalıların və xaçlı cəngavərlərinin əlində idi, üstəlik paytaxt özü də işğalçıların arasında bölünmüşdü [16, s.515-516; 19, s.620-621]. Bu bölgüdə ən böyük qazanc Venesiya respublikasının idi, çünki Venesiyadan Konstantinopola gedən bütün yollara nəzarət onun əlində [16, s.516]. Balkanlarda isə Fessalonika krallığı (1202-1224), Afina senyoriyası / dukatlığı (əvvəlki dövrün ədəbiyyatında: hersoqluq) (1205-1456), Moreya / Axeya Prinsipatlığı (əvvəlki dövrün ədəbiyyatında: knyazlıq) (1205-1432) meydana gəldi.

Bizans mülklərində xaçlılarla yanaşı, yerli dövlətlər də ortaya çıxdı ki, onların da nisbətən güclü olanları – Trapezund (Trabzon) (1204-1461), Nikeya (İznik) (1204-1261) və Epir imperatorluqları (1204-1337) idi. Qeyd edək ki, dördüncü xaçlı əfərindən sonra meydana çıxan dövlətlərdə mərkəzi hakimiyyət zəif olub, aralarındakı güclü rəqabət mövcud olan dörd imperiyanın (Latın, Trapezund və Nikeya) heç birinin mərkəzləşməsinə imkan verməmişdi. Ümumiyyətlə, Bizans imperiyasının 1261-ci ildə bərpasına qədər olan dövrdə bölgədə hərbi-siyasi vəziyyət, hər zamankından daha mürəkkəb olub, güclü diplomatik kombinasiyalar və hərbi səfərlərlə müşayiət olunmuşdur.

Latın imperiyası bölgədə uzun müddət mövcudluğunu qoruya bilməzdi, çünki xaçlılar Suriya və Fələstində olduğu kimi, Anadolu və Balkanlara da Fransa nümunəsində sosial münasibətləri gətirməyə çalışmışdı. Bu, bir tərəfdən, sosial qarşıdurmaları artırarkən, digər tərəfdən isə yerli dövlətlərin Bizans imperiyasını bərpa etmək cəhdlərini də gücləndirmiş oldu. Üstəlik, Konstantinopolda venesiyalıların imtiyazlı yaşamı, imperator II Balduin de Kurtenenin (1228-1261) mühafizlər dəstəsinin tamamilə venesiyalıların nəzarətində olması da sosial, eləcə də siyasi vəziyyəti mürəkkəbləşdirdi [16, s.536].

Yerli dövlətlərin Latın imperiyasına qarşı ilk müqavimət hərəkatı hələ XIII əsrin əvvəllərində baş vermişdi, amma uğur qazana bilməmişdi. XIII əsrin ortalarına doğru bu hərəkatın başına Nikeya keçincə, hadisələr sürətlə dəyişməyə başladı. Qeyd edək ki, Nikeya imperiyası bu dövrdə təkcə latınlara qarşı deyil, Bolqarıstana, katolik Moreyaya və Epirə qarşı da mübarizə aparırdı. 1258-ci ildə Nikeya taxtına II Feodoros Laskarisin (1254-1258) azyaşlı oğlu IV İoannes (1258-1261) keçincə, Nikeya imperiyasının xarici düşmənləri, o cümlədən Bolqarıstan və Epir onlar üçün əlverişli vəziyyət yarandığını düşündülər və imperiyaya qarşı səfərlər düzənlədilər [12, s.500]. Digər tərəfdən, IV İoannesin qəyyumu Mixail Paleoloqos (1259-1261, Nikeya imperatoru, 1261-1282, Bizans imperatoru) Nikeyadakı siyasi vəziyyəti tam

nəzarəti altına alaraq, imperatorluq taxtına qədər yüksələ bildi [15, IV kitab, s.82].

Nikeya imperiyasının daxili və xarici vəziyyətində yaranmış gərginliklərə baxmayaraq, Bizansın bərpası məhz bu dövlətin imkanları hesabına mümkün oldu: Anadolu Səlcuqlu sultanı IV Qılıc Arslanı və monqolları neytrallaşdıran Mixail Paleoloqos 1261-ci il martın 13-də Genuya ilə Nimfeum / Nimfey müqaviləsini imzalamağa müyəssər oldu: 1082-ci il xrisovulu ilə Venesiyaya verilmiş geniş ticari imtiyazların bənzəri Genuyaya verildi və bunun müqabilində Genuya Venesiyaya qarşı mübarizədə imperiyaya donanma ilə yardım etməyi öhdəsinə götürdü. Əslində isə, Q.Ostroqorskinin də qeyd etdiyi kimi, "*Bizans zamanla onun dəniz gücünü və ticarətini ikinci plana atan bu iki şəhər-respublikanın girovuna çevrildi*" [16, s.544-545].

1261-ci il iyulun 25-də Konstantinopol Nikeya qüvvələri tərəfindən müqavimətsiz ələ keçirildi, avqustun 15-də isə imperator VIII Mixail təntənəli şəkildə şəhərə daxil oldu. Nikifor Qriqor yazır ki, "*Şəhərə daxil olan imperator ippodromun yanında yerləşən sarayı ələ keçirdi, çünki bu saray uzun zamandır diqqətdən kənarda və toz içində qalmışdı. Paytaxt özü isə dağıntılar və uçuq-sökük yığnağına çevrilmişdi – hər yerdə dağılmış binaların və yanğının qalıqları var idi*" [15, IV kitab, s.84]. İlk olaraq Konstantinopolun yenidən inşasına başlandı, daha sonra isə Konstantinopol patriarxlığı bərpa edildi. Hakimiyyətə tam sahib olmaq üçün imperator VIII Mixail 1261-ci ilin dekabrında Nikeya imperatoru IV İoannesin gözlərinə mil çəkdirərək həbsə atdırdı. Bununla əlaqədar Georgius Paximerus yazır: "*Hər kəsin İoannes ilə bağlı ümidlərinə son qoymaq və başladılmış işi bitirmək lazım idi*" [17, III kitab, s.125].

Beləliklə, yarım əsrlik fasilədən sonra Konstantinopol yenidən Bizans imperatorlarının hakimiyyəti altına keçdi və 1453-cü ilədək imperiya öz mövcudluğunu davam etdirdi.

**Nəticə**

Bizans imperiyası bərpa edilsə də, əvvəlki qüdrətini geri qaytara bilmədi. Onun tərkibinə sadəcə Anadolunun qərb hissəsi, Frakiya və Makedoniyanın bir hissəsi, bəzi Egey dənizi adaları daxil oldu. Latın imperiyası süqut etsə də, imperiyanın keçmiş mülklərinin bir qismi hələ də latınların, eləcə də italyanların əlində qalmaqda davam edirdi. Bizans üçün xarici təhlükə bitməmişdi, eyni zamanda daxili vəziyyəti də sabitləşdirmək imkansız hala gəlmişdi. Papalıq 1453-cü ilədək kilsələrin uniyası fikrindən vaz keçməyərək, Bizansdakı sosial ixtilafların artmasında böyük rol oynamışdı. Böyük şəhərlərdə, o cümlədən Konstantinopolda iqtisadi həyat tamamilə italyanların əlində cəmlənmişdi və imperiyanın maliyyəsinə ciddi mənada təsir göstərirdi.

XIII əsrin birinci yarısında Bizansın xarici siyasətilə bağlı nəzərdən keçirdiyimiz bəzi vacib məqamlar aşağıdakı nəticələrə gəlməyə imkan verir: dördüncü xaçlı səfərinin uğur qazanması və Konstantinopolun xaçlılar tərəfindən işğal edilməsi, eləcə də Latın imperiyasının qurulması bir sıra amillərlə bağlı olsa da, başlıca amil – Bizansın bu hadisələrin ərəfəsində yaşamış olduğu sosial, siyasi və iqtisadi tənəzzül ilə əlaqədar idi. Bizans imperiyası Romadan qalma ənənələrin təsirindən tam qurtula bilməmişdi və həmin dövrdə Qərbi Avropa ölkələrinin yaşadığı bəzi kardinal dəyişikliklərlə tərs mütənasib idi. Ən mühüm amil isə – Bizans imperiyasının xarıcı siyasətində, yuxarıda da qeyd etdiyimiz kimi, oykumençi doktrinanın üstünlüyü idi.

Bizansın xarici siyasətindəki uğursuzluqlara ciddi mənada təsir edən bir başqa amil – katolik Avropanın basqıçı siyasəti, o cümlədən kilsələrin uniyasında israrçı davranmaları idi. 1054-cü il "sxizması"ndan etibarən Roma Papa hakimiyyəti itirmiş olduğu mövqeyini geri qaytarmaq üçün cidd-cəhdlə mübarizəyə başlamış, dəfələrlə Bizansa qarşı xarici təhlükənin önünü almaq qarşılığında uniya siyasətindən istifadə etmişdir. Bu da öz növbəsində Bizansda onsuz da gərgin olan sosial vəziyyətin daha da pisləşməsinə, imperator hakimiyyətinə qarşı müxalifətin ortaya çıxmasına və nəticə etibarilə də imperiyada mərkəzdənqaçma qüvvələrin güclənməsinə yol açmışdır.

XII əsrin sonlarına doğru xarici siyasi vəziyyəti ağırlaşan Bizans imperiyası XIII əsrin birinci yarısında Qərbi Avropa dövlətləri, o cümlədən Venesiya, Genuya və xaçlılarla münasibətlərində gedərək daha güzəştçi siyasət yürütməyə başlamış, 1261-ci ildə bərpa edilən Bizans imperiyası isə sələflərinin bu siyasətini da-

vam etdirmişlər. Bu səbəbdən də, Paleoloqosların hakimiyyəti (1261-1453) Bizansın ən zəif dövrü olaraq qiymətləndirilə bilər.

## Ədəbiyyat


1. *Gözəlova Y.H. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. Bakı: "Təhsil", 2011 – 295 s.+xəritələr.*
2. *Charanis P. Bizans imparatorluğu'nun çöküşündeki ekonomik faktörler (çev. M.Delilbaşı) // TTK Belleten, Cilt 48, Sayı 191-192, Ekim 1984, c. 523-536.*
3. *Kaya S. Enriko Dandolo*'nun Dördüncü Haçlı Seferindeki Rolü // 3. Uluslararası Mardin Artuklu Bilimsel Araşdırmalar Kongresi Tam Metin Kitabı, 18-19 Ocak 2020, s.60-72.
4. *Özdemir Ö.* Bizans İmparatorluğu'nun Venedik'e Verdiği Ticarî İmtiyazlar (Chrysobullar); Angelos Hanedanı Devri (1185-1204) // USAD, Güz 2020 (13), s.113-134.
5. *Madden Th.F. Enrico Dandolo and the Rice of Venice. Baltimore: Johns Hopkins University Press, 2003 – 298 p.*
6. *Madden Th.F.* Venice and Constantinople in 1171 and 1172: Enrico Dandolo's Attitudes towards Byzantium // "Mediterranean Historical Review", Vol.8, Number 2, December 1993, pp. 165-185.
7. Philips J. The Fourth Crusade and the Sack of Constantinopole. New York: Viking, 2004 – 408 p.
8. *Runciman S. A History of the Crusades: The Kingdom of Acre and the Later Crusaders. Vol.3. Penquin, 2016 – 416 p.*
9. *Величко А.М. История византийских императоров. От Исаака* I *Комнина до Алексея V Дуки Мурцуфла. Москва: Вече, 2015 – 512 с.*
10. *Византийский словарь: в 2 т. / [сост. Общ. Ред. К.А. Филатова]. Санкт-Петербург: "Амфора", 2011, т. 2, с.489-490.*
11. *Джусоев К.М. Погром венецианцев при императоре Мануиле* I *Комнине в 1171 году как одна из причин антагонизма между Византией и Европой // Христианские чтения, № 1, 2017, с.369-380.*
12. *История средних веков / Под ред. С.П.Карпова. Том 1. Москва: Изд-во Московского Университета, 2001 – 640 с.*
13. *Клари Робер де. Завоевание Константинополя. Перевод, статья и комментарии М.А.Заборова.* Москва: Издательство "Наука", *1986 – 175 с.*
14. *Комнина А. Алексиада* / Вступ. статья, перевод, комментарий Я. Н. Любарского. Отв. редактор А. П. Каждан. Москва: Издательство "Наука", Главная редакция восточной литературы, 1965. – 688 с.
15. Никифор Г. Римская история, начинающаяся со взятия Константинополя латинянами. Т.1. Книга 1-11. Пер. с греч. Р.В.Яшунского. Санкт-Петербург: Квадривиум, 2013 – 438 с.
16. Острогорский Г. История Византийского государства. Пер. с нем.: М.В. Грацианский; ред.: П.В.Кузенков. Москва: Сибирская Благозвонница, 2011. – 895 с.
17. Пахимер Г. История о Михаиле и Андронике Палеологах. Т.1. Царствование Михаила Палеолога (1255-1282). Санкт-Петербург: Типография Департамента Уделов, 1862 – 526 с.
18. Соколов Н.П. Образование Венецианской колониальной империи. Саратов: Изд-во Саратовского Университета, 1963 – 546 с.
19. Успенский Ф.И. История Византийской империи. Расцвет. Крушение. Москва: АСТ, 2011 – 1008 с.

**Summary**

**Yegana Chaghlayan**

**On the question of Byzantine european policy in the first half of the 13th century**

The first half of the 13th century was a time of complex trials and changes for Byzantium. After the capture of Constantinople by the Crusaders in 1204, alongside the Latin Empire, several Greek states emerged in Byzantine territory, such as the Empire of Nicaea, the Empire of Trebizond, and the Despotate of Epirus. In this new environment, these states were forced to reshape their foreign policies, especially in relation to European powers, in order to regain their positions in the Balkans and Asia Minor.

Following the capture of Constantinople and the establishment of the Latin Empire, the Empire of Nicaea focused on the struggle to reclaim the imperial capital. Byzantine rulers actively employed diplomacy, forming alliances with various European powers. Special attention was given to relations with the Pope and the Republic of Venice, which played key roles in Western European politics.

Forced to adapt to the new political reality, Byzantium demonstrated flexibility and perseverance, which eventually allowed it to recapture Constantinople, though it was unable to restore the empire to its former glory.


***Keywords:*** *Byzantium, Crusaders, Venice, Komnenos, Angelos, Palaiologos.*


**Резюме**

**Егяна Чаглайан**

**К вопросу европейской политики византии в первой половине XIII века**

Первая половина XIII века была для Византии временем сложных испытаний и изменений. После захвата Константинополя крестоносцами в 1204 году, на территории Византии, наряду с Латинской империей, возникли также греческие государства, такие как Никейская и Трапезундская империи, Эпирское Царство. В новых условиях эти государства вынуждены были перестроить свою внешнюю политику, особенно в отношении европейских держав, чтобы восстановить свои позиции на Балканах и в Малой Азии.

После захвата Константинополя и образования Латинской империи, Никейская империя сосредоточилась на борьбе за возвращение столицы империи. Византийские правители активно использовали дипломатию, заключая союзы с различными европейскими державами. Особое внимание уделялось отношениям с Папой Римским и Венецианской республикой, которые играли ключевые роли в политике Западной Европы.

Вынужденная адаптироваться к новой политической реальности, Византия проявила гибкость и настойчивость, что позволило ей вернуть Константинополь, хотя восстановить былое могущество империи не удалось.


***Ключевые слова:*** *Византия, крестоносцы, Венеция, Комнины, Ангелы, Палеологи.*